# YUMŞAQ BUĞDA SORTLARINDA WX GENLƏRİNİN ÇÖRƏKBİŞİRMƏ KEYFİYYƏTİNƏ TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

**Gülşən Poladova[1], Xanım Poladova[2]**

[1] *Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu*
[2]*Azərbaycan Texnologiya Unversiteti, shenova1@yahoo.com, xanimpoladova@gmail.com*

Yumşaq buğdada (*Triricum aestivum* L.) olan nişastanın tərkibində amilozanın artıq və ya əskik olmasını Granule Bound Starch Synthase I (GBSSI) fermentini kodlaşdıran *Wx* genlərinin müxtəlif allel variantları müəyyənləşdirir.

37 nümunədə *Wx* genlərinin allel müxtəlifliyinin öyrənilməsi üçün mövcud markerlərə əsasən PZR analizi həyata keçirilmişdir. Əkinçi-84, Gönən, Murov-2, Pərvin, Tale-38, Şəfəq-2, Uğur sortlarında *Waxy* genlərinin müxtəlif alleləri müəyyən edilmişdir.

Çörəkbişirmə balına görə bu nümunələr əsasən yüksək balla (4,9), yalnız Əkinçi-84 və Pərvin sortu 4,8 balla qiymətləndirilmişdir. Digər keyfiyyət göstəricilərinə görə də nümunələr yaxın və illər üzrə stabil qiymətlərə malik olmuşdur.

Pərvin və Şəfəq-2 sortlarında molekulyar markerlər vasitəsilə *Wx-B1* geninin *Wx-B1e* “e” (“a” amplifikasiyası) alleli müəyyən edilmişdir. Bu sortların hər ikisi heterogendir. *Wx-B1* geninin “e” və “a” allelərinə rast gəlinir. Uğur sortunda molekulyar markerlər vasitəsilə *Wx-B1* geninin *Wx-B1e* “e” alleli, Gönən sortunda isə *Wx-B1b* (nul-allel) alleli müəyyən edilmişdir.

Kleykovinanın vəziyyəti qluteninlərin yüksəkmolekullu subvahidlərinin (HMW-GS) tərkibindən asılıdır, onlar buğda endosperminin ehtiyat zülallarıdır. 1A, 1B və 1D xromosomların uzun çiynində lokallaşmış, müvafiq olaraq, *Glu-A1, Glu-B1* və *Glu-D1* lokusları ilə kodlaşır.

YMS qluteninlərin allel variantlarını identifikasiya etməyə yardımçı olan UMN19 kodominant markerdən istifadə etməklə təyin edilmişdir ki, Pərvin və Şəfəq-2 sortları 2* subvahidə malikdir, bu isə *Glu-A1a* və *Glu-A1b* allel variantları müvafiq olaraq 1 və 2*, subvahidləri kodlaşdıran çörəkbişirmə keyfiyatinə müsbət təsir göstərir və 3 balla qiymətləndirilir, nul-allellər isə əksinə, mənfi təsir edir və 1 balla qiymətləndirilir.